# Könül dünyasındakı saflığın tərənnümü

**Səbuhi Vaqif oğlu Rəfibəylinin "Könül sevda sorağında" ("Elm və təhsil", 2015) və "Gecə gördüyüm yuxu" ("Rabunə", 2017) adlı şeirlər kitabını oxuyub qurtardıqdan sonra şair İnqilab İsaqın dediklərinin həqiqətən də həqiqət olduğunu gördüm: "Səbuhinin şeirlərinin mövzuları, deyimləri əhval-ruhiyyəsindən, yaşadığı dünyanın əzablarından, pozulmuş ritmindən və ən ümdəsi isə şair ürəyindən qopur. Ruhunu, həyəcanını bacardığı qədər sözə verməkdən çəkinmir. Bu zaman onun üz tutduğu və etibar etdiyi, yaşadığı dünya və bu dünyanın acı teleyi şair gözündə görünən yuxusuz, narahat taleyidir".**

Səbuhi Rəfibəylinin gözdən keçirdiyim hər iki kitabındakı mövzuların əksəriyyəti İ.İsaqın yazdığı kimi, "yaşadığı dünyanın əzablarından" bəhs edir:

**Ömür gödək, gün qiymətsiz, il baha,**
**Qayğılarda hey vurnuxdu bu yaxa.**
**Ötüb keçən günlərimin bir daha**
**Geri dönən dünənini görmədim.**

Şair yaxası qayğılar əlində qalan ömründən gileylənir. Əslində bu bəndin cövhərində daşınan məzmunu xalqımızın bir deyimi ilə həmahəng səsləşir:

"Yüz fikir bir borcu ödəməz". Bəli, yüz fikir-qayğı çəksən də, "bir borcu geri qaytara bilmir", ötüb-keçən günün heç birini geri döndərmək olmur.

Amma nə edəsən ki, insan ömrü təbiətən qayğılarla yaşamağa hesablanıbdır. Qayğısız insan el arasında istehza ilə qarşılanır, "kefkom" kimi aşağılayıcı ifadə ilə lağ obyektinə çevrilir. Elə Səbuhi də misralarında bu kimi məqamlara özünəxas ifadə ilə işarə vurmuşdur.

**Sağımda uçurum, solumda sipər,**
**Gün var ki yaşadım ölümdən betər.**
**Əyriyə yol, məqam verdiyin yetər,**
**Qoyma düzdə qalsın düzümü, Allah.**

Bu misralarda isə "yaşadığı acı tale"dən söz açır, dörd bir yanının bəndə-bərəyə salınmış kimi bağlı olmasını dilə gətirib, əyri əməllərdən çəkinməyi arzulayır.

**Qane ol çoxuna, azına bəxtin,**
**Səbr etsən çıxarsan yazına bəxtin.**
**Gərək oynayasan nazına bəxtin,**
**Gəl bacar, tab gətir, döz insafına.**




Bəxt-tale adlı məfhumun üzərində dayanıbduran müəllif bu məsələdə də səbir anlayışının mühüm rol oynadığına eyham vurur. Bu da ki, əlbəttə, birmənalı qarşılanmır. Çünki bir mənada səbir etməklə istəyə-murada yetməyin mümkünlüyü iddia edilirsə, digər mənada boş-boşuna oturub-gözləməkdə (səbir etməkdə) heç bir fayda olmadığı da bir həqiqətdir. "Səbir elə, halva bişər, ey qora, səndən" deyimindəki ironiya kimi.

Elə bəlkə də buna görədir ki, digər bir şeirində Səbuhi Rəfibəyli yazır:

**Yaman tələsirəm istəyə doğru,**
**Hər anım, dəqiqəm qənimət mənə**
**Zaman var-dövlətdir, mənsə bir oğru,**
**Tanrım göz yumarmı bu cinayətə.**

Nə demək istəyir bu bənddə müəllif? İstədiyinə yetişməkdən ötrü bərk tələsdiyini-hətta hər anı, hər dəqiqəni bu məqamda özünə bir qənimət, fürsət sandığını da etiraf edir. Eyni zamanda zamanı-vaxtı haqlı olaraq var-dövlət kimi səciyyələndirir.

Doğrudan da, insan üçün vaxt qızıldır, vaxtdan səmərəli istifadə etmək çox mühüm amildirsə, vaxtdan sui-istifadə etməksə, vaxtla oyun oynamaqsa insanlıq üçün ən böyük cinayətdir. Məhz vaxtı-zamanı qabaqlamaq, ondan maksimum şəkildə bəhrələnməyi özü üçün böyük nəf sayır, buna görə də vaxtı "oğurlamağı" niyyətindən keçirdiyinə görə də Tanrı bu oğurluğu bağışlayarmı (bu oğurluğa göz yumarmı) deyə ritorik sual edir. Axı səbirsizlik - yəni hər şeyin vaxtında olmasını gözləməmək - vaxtı qabaqlamaq istəmək həm də teztavlıq eləmək kimi də düşünülür. Bu səbəbdən də hər işi səbirlə-zamanı ilə görən Allahın istəyinin əleyhinə getməyi (vaxtı oğurlamaq istəyi kimi bir "cinayəti") görəsən Tanrı bağışlayarmı deyə bədii sual qoyur qarşıya müəllif. Bədii sualın cavabı isə qalır oxucunun poetik(əslində analitik) mühakimə yürütmək bacarığının hesabına.

Çox güman ki, vaxtın-zamanın umuduna qalıb çox gecikməyin də faciəsini açıq-aşkar şəkildə görən Səbuhi Rəfibəyli digər bir nümunədə deyir:

**Kədər də çoxaldı, qəm də çoxaldı,**
**Gözümdə yaşlar da, nəm də çoxaldı.**
**Daha saçlarımda dən də çoxaldı**
**Arzular qəlbimdə dinənə qədər.**

Göründüyü kimi, saçlarında dən çoxalanqocalıq vaxtı gəlib yetişən insanın hələ arzuları qəlbində arzu olaraq qalıb deyən müəllif məhz bu məntiqdən səbirə bel bağlamağın əleyhinə çıxış edir. Yəni ki, ömür gözləmir, vaxt-vədə gəlib insanın başının üstünü alanda isə artıq hər şey gec olur. Ancaq bütün bunlara baxmayaraq, şair ilahi bir qüvvəyə də bel bağlayıb, ümiddən əl üzməməyi də tövsiyə edir:

**Həyatdan inciyib küsməyə dəyməz,**
**Gözləri, baxışı süzməyə dəyməz.**
**Bütün ümidləri üzməyə dəyməz,**
**Allahın mərhəmət əli var axı.**

Ona görə ki, bir atalar məsəlimiz var: ümidini üzdün, öldün.Bəli, insanın həyatdan ümidi üzülsə, o, diri ikən ölmüş kimi olur.

Səbuhi Rəfibəyli həyatdakı neqativliklərə də özünəxas bir üslubda toxunur:

**Əlinin papağı Vəli başında,**
**Ağıllı fırlanır əli başında.**
**Vəlinin papağı dəli başında,**
**Dəlinin daşından özünü gözlə.**

Folklordan gələn bir deyimdən istifadə etmək yolu ilə müəllif fikirlərini izhar edir: Ağıllının əlini başına aparıb fırlanması gördüyü və dərk etdiyi acı həyat həqiqətlərindən dəli olub




havalanmaq dərəcəsinə yetişməsi kimi bir psixoloji məqamı əks etdirir. Çünki ağıllı hansısa neqativ əməllə rastlaşanda, başına hava gəlmiş kimi olub, dəli kimi durduğu yerdə fırlanası olur-hansı səmtə üz tutacağını, kimdən nicat umacağını bilmədən özü öz başına fırfıra kimi fırlanmaq əzabını yaşayası olur. Və bu zaman hər hansı bir dəlinin-ağıldan kəmin, axmağın sənə tuşlanacaq haqsız zərbəsindən( dəlinin daşından) özünü qorumalısan ki, ucuz ölümə qurban getməyəsən.Çünki ölüm haxdan gələn bir şeydir, amma nahaqdan gələn ucuz ölümün insanı haxlaması dözülməz dərddir.Məhz S.Rəfibəyli belə ucuz ölümdən-dəlinin daşından özümüzü gözləməli olduğumuzu diqqətə çatdırmaq istəyir.

Deyərdim ki, belə neqativ hallardan irəli gələn hisslərin ifadəsi kimi araya-ərsəyə gəlib aşağıdakı misralar:

**Pisliklər dolaşar ələ, ayağa,**
**Daim zərər gələr daşdan ayağa.**
**Fitnədi-fəsaddı başdan ayağa,**
**Hər addım başında tor, həyatdı bu.**
**Tutub buxovlanar əlləri, qolu,**
**Nə illah eləyər açılmaz yolu.**
**Doğrunun bağlanar hey sağı, solu,**
**Oğruya açılar yol, həyatdı bu.**

"Həyatdı bu" rədifi üstündə qurulan bu şeirdə Səbuhi birbaşa həyatda rastlanıla bilən əyintilərə qarşı etirazını bildirir, doğrunun yollarının bağlanılmasının öz-özünə oğrunun -əyrinin işinə kömək etdiyini açıb göstərir.Ona görə ki, harda düzlük keçmirsə, demək, orda haqsızlıq baş qaldırır, yalan ayaq alıb cəmiyyətin üstünə yeriyir.S.Rəfibəyli də bir yazar kimi öz missiyasını lirik duyğulara meyil salmaqla könül dünyasında yaşatdığı saf bir dünyanı təbliğ-tərənnüm etməkdə görür. Bu məqamda yazının-qələmin missiyasının nədən ibarət olduğu da bir daha özünü göstərir.İnsan qələmə sarılanda, yəni şifahi danışıqdan yazılı nitqə keçəndə artıq öz niyyətini rəsmiləşdirmiş olur.Rəsmi-əməli üslubdakı ərizə, şikayət məzmunlu yazılar hansı qayəyə xidmət göstərirsə, bax Səbuhi Rəfibəyli lirikasının əsas leytmotivi də bu cür bir məqamın daşıyıcısı kimi çıxış edir. Bu mənada mən onun yaradıcılığının ümumi məğzini rəsmi-əməli üslubun poetik fondakı əksi kimi dəyərləndirərdim.Necə ki, M.Füzuli "Şikayətnamə"sində dövrünün haqsızlığından giley-güzar əhvalını əks etdirirsə, eləcə də Səbuhu Rəfibəyli misralarından biz bu mahiyyəti görürük.İnsan kimə isə ərizə ilə müraciət edəndə, şikayətlənəndə, etdiyi ərizənin,şikayətin mütləq bir cavabı olacağını yəqinləşdirir, özü də yazdığına müsbət cavab alacağını düşünür.

**Səbuhi Rəfibəyli də məhz oxucularına belə bir məramla müraciət edir, axı oxucular həm də kütlənin, ictimaiyyətin əsas tərkib hissəsidir. İctimai mühitdə rastlaşdığı barışmazlıqların etirazını ifadə etdiyi şeirləri vasitəsilə etdiyi çağırışlara bir müsbət cavab alınacağını,təsirli bir reaksiya veriləcəyini düşünən müəllifin arzuları aydındır: Cəmiyyətimizdəki antipod halların, neqativ ünsürlərin qarşısını almaq!Məncə, "Könül sevda sorağında"adından müəllifin bu sevdanın sorağında olduğu eşidilməkdədir."Gecə gördüyüm yuxu"ifadəsindən isə şairin gecə gördüyü yuxuların səhər tezdən ayılanda yox olduğu kimi, rastlaşdığı neqativliklərin də beləcə yox olub getməsini xəyal etməsi kimi yozulub-anlaşıla bilər.Hər halda bütün bunlar bir qələm əhlinin duyduqlarından dolayı etdiyi çağırışlarıdır və ümidvarıq ki, oxucu kütləsi bu səsləniş hay verəcəkdir.Axı sözdə deyilənlər əməldə gerçəkləşəndə həqiqət var olur.Həqiqət isə hamıya gərəklidir.**

**Şakir Əlifoğlu,**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**